# İdmançılarla görüş




Beynəlxalq Mətbuat Mərkəzində şəhid ailələri ilə "Bakı-2015" ilk Avropa Oyunları qaliblərinin görüşü keçirilmişdir.

Tədbirin təşkilatçısı, Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin sədri **Almaz Zeynalova** I Avropa Oyunlarında Azərbaycan bayrağını zirvələrə yüksəldən idmançılarımızı təbrik etmiş və mötəbər yarışların yüksək səviyyədə keçirilməsinə görə ölkə başçısı cənab İlham Əliyevə, I Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevaya minnətdarlığını bildirmişdir.

İlk Avropa Oyunlarının qızıl mükafatçısı Ayxan Tağızadə, Firdovsi Fərzəliyev, İrina Zaretska, Rəfael Ağayev, ölkəmizə ilk medal qazandıran İlahə Qasımova qələbə sevinclərindən danışmış, göstərilən diqqət və qayğıya görə bütün azarkeşlərə təşəkkürlərini bildirmişlər.

Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov və məşqçi Rəhman Hətəmov şəhid ailələri ilə birlikdə keçirilən tədbirdən məmnun qaldığını bildirmişdir.

Şair-jurnalist Rauf İlyasoğlu I Avropa Oyunlarına həsr etdiyi şeiri söyləmiş, Azərbaycanın Xalq artisti Flora Kərimova, jurnalist Rey Kərimoğlu, Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədimov, Qarabağ müharibəsi veteranı Təhmasib Novruzov və başqaları idmançılarımızı qazandıqları parlaq qələbə münasibətilə bir daha təbrik etmişlər.

Şəhid ailəsi Almaz Zeynalova Azərbaycana medal qazandıran idmançılarımızın rəhbərlik etdiyi ictimai birliyin adından fəxri diplomlara layiq görüldüyünü bildirmişdir.

Sonda idmançılarımızın qazandıqları uğurlardan bəhs edən videoçarx nümayiş etdirilmişdir.

**R.İLYASOĞLU,**
**"Respublika".**